

*Camal ZEYNALOĞLU*

# Uçurumun kənarında

**(hekayə)**

**(əvvəli ötən şənbə sayımızda)**

Şam yeməyindən sonra Fərid qıza özünümüdafiə üçün bəzi idman fəndlərini öyrətmək istədi. Belə ki, o, qıza ilkin olaraq sadə bir fənd işlətməyi qərara aldı. Fənd işlədərkən Fəridin əli yavaşca Sevilin sağ böyrünə toxundu. Bu zaman qız: "Vay, öldüm!" deyə bərkdən qışqıraraq yerə uzandı. Fərid qorxdu. Sevil isə əli ilə sağ tərəfini tutub qışqırmaqda davam edirdi. O, özünü itirmədən qızı qucağına götürüb aşağı düşdü, bir taksi tutub onu yaxınlıqdakı tanış xəstəxanaya apardı. Burada Fəridin tanış həkimi vardı. Xoşbəxtlikdən bu axşam onun növbəsiydi. Həkim qıza baxan kimi xəstənin təcili əməliyyatxanaya götürülməsini tapşırdı. Fərid isə dəhlizdə gözləməli oldu. Qırx-əlli dəqiqədən sonra Fuad həkim çıxdı və Fəridə qorxulu bir şeyin olmadığını söylədi. Qızın kor bağırsağıymış. Əməliyyatın uğurlu keçdiyini bildirən həkim Fəridi sakitləşdirdi...

Üç gündən sonra Fərid qızı xəstəxanadan çıxarıb yenə evlərinə gətirdi. Bir də üç gündən sonra tikişini sökmək üçün həkimin yanına aparacaqdı.

Fərid gündüzlər döyüşçü dostlarıyla idmanla məşq edir, axşamlar isə evə qayıdırdı. Xüsusi təyinatın uşaqları əsasən fiziki sağlamlıqlarına ciddi fikir verirdilər. Fərid döyüşçü dostlarıyla birlikdə Ağdam, Goranboy, Ağdərə, Tərtər bölgələrində bir sıra mühüm tapşırıqları yerinə yetirmişdi. Növbəti tapşırıq Ağdamın Şelli kəndinə hücum edən ermənilərin qarşısını kəsmək və oradakı düşmən bölmələrini məhv etmək idi. Onlar iyirmi nəfər xüsusi təyinatlı dəstənin uşaqlarıyla əvvəlcə kəşfiyyata getmişdilər. Geri qayıdarkən ermənilərin mühasirəsinə düşürlər. Həmin mühasirədə Fərid on iki yoldaşını itirir. Mühasirədən yaralılarla birlikdə cəmi yeddi nəfər çıxa bilmişdi. Fərid yaralı yoldaşını çiyninə alıb sürünərkən arxadan həm yoldaşına, həm də özünə bir neçə güllə dəymişdi. Yoldaşı kürəyindəcə keçinmişdi, ancaq buna baxmayaraq Fərid onu da mühasirədən çıxara bilmişdi. Ölmüş yoldaşını uşaqlara təhvil verərək yenidən digər yaralı yoldaşını xilas etmək üçün geri qayıtmaq istəmişdi. Yoldaşları yaralı olduğunu Fəridə anlatsalar da, buna fikir verməmiş, digər yaralı dostunu qurtarmaq üçün yenidən irəli can atmışdı. O, yoldaşlarından iyirmi metr aralanmışdı ki, yanında qumbara partlamışdı. Fərid yerə yıxılmışdı. Gözlərinə qaranlıq çökmüş, xəyalında son dəfə anasını xatırlamışdı. Anası ona həmişə xoşladığı üçün bişmiş südün üzünü verərdi. O, həm də soyuq aylarda anasının bişirdiyi çörəkləri təndirdən çıxardıqdan sonra qonşu uşaqlarla birlikdə ayaqlarını təndirə salladıqlarını, təndirin közünün altına kartof basdırmalarını, sonra da bişmiş kartofları əlləri yana-yana necə soyduqlarını, yay aylarında isə çayda balıq tutmaq üçün uşaqlarla gəndalaş bitkisindən düzəltdikləri kolaz çəkmələrini xatırlamışdı... Yoldaşları elə bilmişdilər ki, Fərid ölüb. Lakin ona yaxınlaşanda nəbzinin hələ də vurduğunu hiss etmişdilər. Sonra döyüşçü dostları onu götürüb tez rayon xəstəxanasına aparmışlar. Amma vəziyyəti ağır olduğu üçün Bakıya göndərməli olmuşdular...

Artıq doqquzuncu gündü ki, Sevil Fəridin müsafiriydi. Qız sağalmışdı. Həmin axşam Sevil Fəridə göstərdiyi qonaqpərvərliyə və xeyirxahlığa görə minnətdarlığını bildirdi. Sabah qız rayona gedəcəkdi. Bu zaman qapı döyüldü. Fərid qapıya yaxınlaşıb gözlükdən baxdı və təlaş içində dönüb Sevilə dedi: "Vay, yandım, bibimdir! Səni burada görsə, mənə toy tutacaq..."

Xuraman haradansa Fəridin evində yad bir qızın qaldığını öyrənmişdi. Ona görə də bu xəbəri eşidən kimi birbaş qardaşı oğlunun qapısına dayanmışdı. Fərid qapı arxasında bibisini görən kimi qızı hamamda gizlətməyə çalışmışdı. Amma Xuraman xanım evə girən kimi Fəridin üstünə: "Hanı o, qancıq?! Hardadır o, fahişə?" deyə əsəbi halda ucadan qışqırmağa başlamışdı. Qardaşı oğlu ona mane olmağa çalışmış, ancaq bibi əliylə qoymuş kimi qızı tapıb saçından tutaraq onu hamamdan çıxarmış və onu döyəcləməyə başlamışdı. Birdən Fəridin yadına nəsə düşmüşdü və ucadan bağıraraq demişdi: "Bibi, qız yaralıdı! Ona toxunma! Onu burax! Əməliyyat olunub. İndi yarasının tikişi açılacaq!"

Bu sözdən sonra Xuraman qızı rahat buraxdı. Fərid bibisini sakitləşdirdi və əhvalatı olduğu kimi ona anlatdı. Bibisi Fəridi sona qədər dinlədikdən sonra: "Fərid, bu sənə heç yaraşmır. - dedi. - Sən ki ağıllı oğlansan. Sənin küçə qadınlarıyla nə işin var? Bizim adımız-sanımız var. Gör bir sən kimin oğlusan?"

- Bu qızı sabah tezdən rayona yola salırsan. Daha başqa bir söz eşitmək istəmirəm.

- Yaxşı, bibi. Mən Sevili sabah rayonlarına yola salacağam. - Fərid bibisini əmin etdi.

Ertəsi gün Fərid Sevili avtovağzala gətirdi, ona bilet aldı, əl çantasına bir az da yolxərci qoydu və dedi:

- Yaxşı ki, bizim kimi adama rast gəlmisiniz, yoxsa şorgöz kişilər sizi çoxdan kirlətmişdilər. Məsləhətim odur ki, bir də şəhərə gəlməyin.

Bu hadisədən iki il keçəndən sonra indi həmin qız yenidən Fəridin qarşısında dayanmışdı. Fərid gülümsündü:

- Bəs bu dəfə nədən gəldiniz?

- Sizə bir təşəkkür borcum vardı, onunçün gəldim. O zaman sizə minnətdarlığımı bildirməyə macal olmadı, həm də buna bibiniz imkan vermədi. Bu gün mən sizə hər şeyi səmimi şəkildə etiraf edəcəyəm. Hər şeydən öncə, onu deyim ki, siz mənim xilaskarımsınız. Bu barədə evdəkilər də bilir. Siz mənim həyatımı qurtarmısınız. Məni pis yola düşməkdən çəkindirmisiniz. Namusumun ləkələnməsindən qorumusunuz! Siz məni həyatın dibinə yuvarlanmaqdan xilas etmisiniz. İndi nişanlanmışam. Bu yaxınlarda toyum olacaq. Çox istərdim ki, toyumda qardaş əvəzi olaraq siz də iştirak edəsiniz. Çünki mənim həyatda qardaşım olmayıb. Bir qardaş kimi gəlin köçərkən xeyir-duanı sizdən almaq istərdim. Biz ailədə üç bacı olmuşuq. Bizi anamız böyütmüşdü. Atamız qız uşağı istəmədiyi üçün bizləri atıb birdəfəlik harasa gedib. Mən o zaman Bakıya niyə gəldiyimi sizə indi anladacağam. Evdə olarkən sağ tərəfimdən tez-tez ağrılar tuturdu. Bir dəfə əlacsız qalıb anam məni kənd həkiminə apardı. O, mənə baxıb dedi ki, məndə "apendisit"dir. Təcili əməliyyat olunmalıdır. Yeməyə çörəyi güclə tapırdıq. Əməliyyata pulu hardan tapacaqdıq. Buna görə də anama və bacılarıma yük olmaq istəmədim. Bakıya gəldim. Fikrim də tutmuşdum ki, rastıma çıxan hər hansı bir oğlanla tanış olum. Onunla yatarkən birdən qışqırıb qəsdən böyrümü tutacağam. O da istər-istəməz məni xəstəxanaya aparacaqdı. Və "apendisit"im olduğu məlum olacaqdı. Beləliklə, həmin adamın hesabına əməliyyat olunacaqdım. Yaxşı ki, Allah qarşıma ilk olaraq Rüfət və sizi çıxardı. Sizin kimi namuslu, qeyrətli adamlar qarşıma çıxmasaydı, kim bilir həyatım indi necə olacaqdı. Siz Allah təklifimi və dəvətimi qəbul edin. Məni qırmayın. Sizin kimi qardaşın xeyir-duasına indi həqiqətən də çox ehtiyacım var. Necə olursa-olsun qardaş bacısının xoş günündə onun yanında olmalıdır, elə deyilmi?!

Fərid Sevilin son cümləsindən keçə bilmədi. Və gülərək: "Narahat olma. Sizə xeyir-dua verib, ər evinə bir qardaş kimi mən yola salacağam, bacım!" dedi.